**“Palitra”.**-2013.-14 fevral.-№28.-S.7.

**Tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərov: “Morqan qardaşlarının Azərbaycandan apardığı materiallar Paris yaxınlığındakı Sen-Jermen Muzeyində saxlanılır”**

Azərbaycan xalqının zəngin maddi-mədəni irsinin üzə çıxarılması, dərindən və hərtərəfli öyrənilməsi üçün arxeologiya və etnoqrafiya sahəsində araşdırmaların müstəsna əhəmiyyəti var. Müsahibimiz ölkəmizdə bu istiqamətdə fəaliyyəti ilə seçilən alimlərimizdən biri, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji abidələrin toplusu şöbəsinin müdiri, Cənub-şərqi Azərbaycan arxeoloji ekspedisiyasının rəisi, Fransa-Azərbaycan birgə arxeoloji ekspedisiyasının Azərbaycan üzrə rəhbəri, tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərovdur:

**-Abuzər müəllim, Siz uzun müddətdir ki, cənub bölgəsində fəaliyyət göstərən ekspedisiyaya rəhbərlik edirsiniz. Bilmək istərdik ki, bu bölgəyə maraq hardandır?**

- Cənub bölgəsi həm təbiətinə, həm iqliminə, eləcə də dağlıq, dağətəyi, düzənlik ərazilərin bir-birini tamamlamasına görə çox maraqlı bölgədir. Elə bölgələr var ki, orada əhali yaylaq üçün başqa, qışlaq üçün başqa bölgəyə gedirlər. Tarixən cənub ərazisi insanların diqqətini cəlb edib, məskunlaşıblar, son orta əsrlərə qədər yaşayıb, burada özlərinin həyat izlərini qoyublar. Burada abidələr hələ keçən əsrdən diqqəti cəlb edib. O vaxt Cənubi Qafqazı, Azərbaycanı, qonşu olan əraziləri, o cümlədən İran, Gürcüstan ərazilərini öyrənmək üçün Avropadan xüsusi missiyalar gəlirdi. Onlar ölkəmizin müxtəlif bölgələrində olublar. Sonradan məlum olub ki, bu missiyanın altında başqa məqsədlər də durub. Buraya gələnlərin əksəriyyəti geoloq olublar, heç biri arxeoloq deyildi. Onlar Rusiya imperiyası ilə müqavilələr bağlayırdılar, bu əraziləri gəzib faydalı qazıntılar axtarırdılar. Qazıntı işləri zamanı yerin altından çıxan maddi-mədəniyyət nümunələrinə böyük həvəs göstərirdilər. Çünki artıq Avropada muzeylər formalaşmışdı, arxeologiya elmi yaranmışdı. Bu ölkələrdən gələnlərə də belə tapşırıqlar verilirdi ki, gedib həmin ərazilərdə olsunlar, bu materialların oxşarlarının olub-olmadığını öyrənsinlər. Bunları öyrənmək üçün ovaxtkı ekspedisiyalar yaranır, fəaliyyət göstərirdi. Bu ekspedisiyalardan biri də cənub bölgəsinə gəlir. Beləliklə, Fransadan Morqan qardaşları buraya gəlir, Lənkəran və Lerik rayonu ərazisində xeyli dağıntılar törədirlər. Burada əldə etdikləri materialları özləri ilə Fransaya aparırlar.

Sonrakı dövrlərdə bu bölgəyə maraq bir az da artır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ölkəmizi öyrənən cəmiyyətlər yaranır, ilk muzeylər formalaşmağa başlayır. Milli Azərbaycan Tarixi Muzeyi yaradılır və onun nəzdində maddi-mədəniyyət nümunələrini, qədim dövrlə bağlı olan abidələri öyrənməyə bir meyl yaranır. Ona görə də, çoxlu ezamiyyətlər olur ki, onların əksəriyyəti 1920-30-cu illərin əvvəllərində cənub bölgəsinə olur.

Müharibədən sonra yenidən buraya maraq artır. 1950-60-cı illərdən yenidən buraya xüsusi ekspedisiyalar təşkil edilir. Bu ekspedisiyanın fəaliyyəti nəticəsində burada yeni bir arxeoloji mədəniyyət müəyyənləşdirilir. Buradakı abidələri, xüsusilə də, dəfn adətləri ilə bağlı qəbir abidələrini tədqiq etməklə yeni arxeoloji mədəniyyət müəyyənləşdirilir. Buna Talış-Muğan mədəniyyəti deyilir.

Sonrakı dövrlərdə sərhəd bölgəsi olduğuna görə qapalı bölgə olub və giriş-çıxış icazə ilə olub. Burada arxeoloji tədqiqatlar aparılması da böyük çətinliklərlə üzləşib. Çünki sərhədçilər sərbəst gəzməyə, işləməyə icazə vermirdilər. Burada baxımsızlıq ucbatından çoxlu dağıntılar törədilib. Ümumiyyətlə, tarixin izini silmək məqsədilə çoxlu dağıntılar ediblər. Qəbir abidələrinin üzərindəki daşlara qədər aparılıb, sındırılıb, dağıdılıb. O zamankı nəzarətsizlik abidələrə, ziyarətgahlara, yaşayış məskənlərinə, karvan yollarına, qalalara, qəbir abidələrinə çox böyük ziyan vurub. Ən acınacaqlısı isə odur ki, o zaman burada üzüm plantasiyalarının salınması abidələrin dağılmasna səbəb olub. Xüsusilə də, Cəlilabad, Masallı rayonu ərazisində təsərrüfatla bağlı olan işlər abidələrə çox böyük ziyan vurub.

80-ci illərin ortalarında bu bölgənin arxeoloji abidələrini tədqiq etmək üçün xüsusi bir ekspedisiya yaradılır. Bu ekspedisiya 1985-ci ildən bu günə kimi fəaliyyətini davam etdirir. Həmin ekspedisiya buradakı abidələri siyahıya almaq, xəritələşdirmək zərurətindən yaradılır. Artıq bir neçə rayonun ərazisi başdan-başa gəzilib, arxeoloji abidələrin koordinatları, sərhədləri müəyyənləşdirilib. Bəzi suallara

aydınlıq gətirilib. Məsələn, uzun müddət belə bir fikir hökm sürürdü ki, dağlıq ərazidə yaşayış məskənləri çox məhdud, bəsit olub. Ancaq son tədqiqatlar göstərir ki, burada yüz illərlə sürən yaşayış məskənləri olub. Bölgənin iqliminin yaxşı olması burada həyatın daş dövründən başladığını göstərir. Məsələn, burada Buzeyr mağarası kimi Paleolit dövrü abidəsi öyrənilib. Bu bölgə tarixin öyrənilməsi baxımından maraqlıdır və bütün sahələrdə, istər təsərrüfat, istər maldarlıq, istər sənətkarlığın öyrənilməsində, istərsə də ticarət, karvan yollarının öyrənilməsində bu bölgə xeyli material verə bilir. Biz artıq 4-cü ildir ki, Cəlilabad rayon ərazisində tədqiqat işləri aparırıq. Artıq bu işləri yekunlaşdırırıq. Əslində yekunlaşdırmaq mümkün deyil, çünki hər il yeni bir abidə meydana çıxır.

**- Fransa-Azərbaycan birgə arxeoloji ekspedisiyasının Azərbaycan üzrə rəhbəri kimi bu istiqamətdə aparılan tədqiqatlarla bağlı nə deyərdiniz?**

- Cənub bölgəsinin arxeoloji abidələrlə zəngin olması yenidən Qərbdəki əməkdaşların buraya olan marağını oyadıb və 100 il keçdikdən sonra Morqan irsinin öyrənilməsi adı altında bir beynəlxalq müştərək ekspedisiya yaradılması təklif edilib. Bu təklif bizim tərəfimizdən alqışlandı və 2011-ci ildə onların nümayəndələri buraya gəldi. Lerik rayonu ərazisində vaxtilə Morqanın getmiş olduğu məkanlarda 3-4 gün oldular. Sonra müqavilə imzalandı. Vaxtilə Morqan qardaşlarının Azərbaycandan aparmış olduğu materiallar bu gün Paris yaxınlığında Sen-Jermen Muzeyində saxlanılır. Onların əksəriyyəti heç işıq üzü görməyib. Buradan necə aparılıbsa, saxlanılır, əksəriyyəti nəşr olunmayıb. Vaxtilə Morqan özü onların bir hissəsini çap etdirmişdi. Bizi maraqlandıran digər tərəf isə o idi ki, onlar bizimlə birgə tədqiqatlar aparacaq və bizim imkanımız olacaq ki, vaxtilə buradan aparılmış və orada saxlanılan materialları gedib görək və tədqiq edək. Bu ümidlə də biz onlarla müştərək işə başladıq.

2012-ci ilin iyun-iyul ayları ərzində biz vaxtilə Morqanın qazıntılar apardığı Lerik rayonunun Kirəvələdi kəndi ərazisində tədqiqatlar apardıq və bir neçə daş qutu aşkar etdik. Eyni zamanda birinci il olduğuna görə biz qarşımıza məqsəd qoyduq ki, vaxtilə Morqanın olduğu yerlərdə də olaq. O yerlər dağlıq ərazilər olduğuna görə hava şəraiti ilə əlaqədar problemlər yaranırdı, lakin biz planlaşdırmışıq ki, bu missiyamızı davam etdirək.

Layihəyə uyğun olaraq, fransalı həmkarlarımız bizi Fransaya dəvət etdilər və biz 15 gün Sen-Jermen Muzeyində saxlanılan materiallar üzərində işlədik. Çox möhtəşəm materiallardır, onların içərisində dulusçuluq məmulatı, silahlar, (xəncər, nizə və ox ucluqları), o cümlədən bəzək əşyaları vardır. Buradan aparılan bütün materialların heç biri itirilməyib, çox gözəl saxlayıblar. Buradan aparılmış materialların inventar kitabı tərtib edilib, təsviri və ölçüləri göstərilib. Bu materiallar eyni zamanda hansı yerlərdən tapılıbsa, ayrı-ayrı yeşiklərdə saxlanılır, bəziləri də ekspozisiyaya qoyulub. O materiallar ki fondda saxlanılır, hamısı Azərbaycan materailları kimi saxlanılır. Məsələn, birinin üzərində "Coni-Azərbaycan-Lerik" yazılıb. Amma təəssüf ki, 20 il bundan əvvəl Sen-Jermen ekspozisiyası yenidən qurularkən ermənilərə rəğbəti olan bir nəfər ekspozisiyanın yaradılmasına rəhbərlik edir. Belə bir təhrifə yol verilir ki, ekspozisiyada olan materialların altında "Ermənistan materialları" yazılır. Əlbəttə, Azərbaycandan aparılan materialların bu dərəcədə təhrif edilməsi bizi çox narahat etdi. Biz bu məsələ ilə məşğul olduq və bildirdik ki, bu təhrifi aradan qaldırmasanız, sizinlə əməkdaşlığımız pozula bilər. Dedilər ki, hazırda buna maddi imkanımız yoxdur, amma yaxın vaxtlarda bunu düzəldəcəklərini bildiriblər.

**-Bu layihənin gerçəkləşdirilməsi Azərbaycan arxeologiyasına nə verə bilər?**

- Biz Fransada olarkən ən başlıcası bu materialların şəkillərini çəkməyə, təsvirini verməyə imkan yaratdılar. O materialların üzərində ayrılıqda işləyə bildik, çoxlu görüşlər keçirdik. Muzeyin gözəl laboratoriyası var, dünya elmində yeri olan eksponatlar var. Parisin 10-cu universiteti deyilən Nanterrada olduq və orada maraqlı görüşlər keçirdik. Bu universitet Parisdə yeganə universitetdir ki, Arxeologiya fakültəsi var və orada arxeoloqlar hazırlanır. Bizi Mədəniyyət Nazirliyinin Muzeylər Departamentinə dəvət etdilər və çox maraqlı görüş oldu. Bizə olan marağı gizlədə bilmədilər. Bildirdilər ki, Azərbaycanla nəinki arxeologiya, istənilən sahədə əməkdaşlıq etməyə hazırıq. Hətta qeyd etdilər ki, sizin böyük layihələri qısa müddətdə gerçəkləşdirmək imkanlarınız var. Sizin ölkə bunu "Eurovision"a qısa müddətdə və möhtəşəm hazırlaşmaqla təsdiq etdi. Belə bir fikir səsləndi ki, artıq üzümüzü Qafqaza, Dümanın keçdiyi yerlərə tutmalıyıq. Təklif etdilər ki, bu bölgə haqqında müştərək sənədli film hazırlayaq ki, orada da ekspedisiyanın fəaliyyəti işıqlandırılsın. Mən orada dedim ki, Lerikdə dünyada analoqu olmayan

Uzunömürlülər Muzeyi var. Həmin fakt da maraqla qarşılandı. Ümumiyyətlə, Qərb ölkələrinin bizimlə əməkdaşlıq etməyə marağı artıb. Bu da ölkəmizin siyasi qüdrəti və inkişaf edən iqtisadiyyatı ilə bağlıdır.

Bu gün Azərbaycanda 40-dan artıq arxeoloji ekspedisiya fəaliyyət göstərir. Prezident öz fondundan arxeoloji ekspedisiyaları genişləndirmək və maddi-texniki bazasını gücləndirmək üçün artıq neçə ildir ki, vəsait ayırır. Orada da görürlər ki, bizdə arxeoloji tədqiqatların aparılmasına diqqət var. Bütün bunlar hamısı bizim layihənin daha geniş sahələri əhatə etməsinə, kitablar çap etməyə imkan verir. Biz Luvr muzeyində olarkən gördük ki, çox gözəl laboratoriyalar var. Eləcə də Arxeoloji araşdırmalar Mərkəzində olduq. İnanıram ki, bunlar nə vaxtsa bizdə də olacaq. Ancaq bir cəhəti deyim ki, onlar tədqiqatların əksəriyyətini xeyriyyəçilik yolu ilə əldə edilən vəsaitlərlə həyata keçirirlər. Bizdə də xeyriyyəçilik institutu yaradılmalıdır. Çünki bizdə bunun ənənəsi var. Z. Tağıyev Xaçmazdan buraya öz vəsaiti hesabına su çəkib. İndi Lerikdə onlarla böyük sərmayə sahibi var. Onların cüzi bir yardımı vaxtilə Lerikdən aparılmış materialların işıq üzü görməsinə kömək edə bilər. Bu, 4 illik layihədir və sonda sərgi yaradılması nəzərdə tutulub. O vaxtkı və indi aşkar olunan materiallardan həm Fransada, həm də burada sərgi təşkil olunacaq.

**- Çox sağ olun. Müsahibə üçün təşəkkür edirik. Abuzər müəllim, inanırıq ki, sizin bu istiqamətdə tədqiqatlarınız arxeologiya elminin inkişafına yeni töhfə verəcək.**

**Nigar ABDULLAYEVA**